**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin etik davranış məsələləri ilə bağlı 2022-ci ildə görülmüş işlər barədə illik hesabatı**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planının 8.10.1-ci yarımbəndinin aidiyyəti üzrə icrası çərçivəsində hesabat ili ərzində korrupsiya barədə məlumat vermə, qərəzsizlik, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi, maraqların toqquşması və digər etik davranış qaydaları üzrə mütəmadi müzakirələr keçirilmişdir.

2022-ci il 28 dekabr tarixində Əqli Mülkiyyət Agentliyində "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən etik normalara dair dövlət qulluqçularının maarifləndirilməsi və etik müvəkkilin etik davranış qaydaları barədə illik hesabatının dinlənilməsi məqsədilə onlayn iclas keçirilmişdir. İclasda Qanunun əsas məqsəd və prinsipləri, Agentliyin müvafiq əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularının etik davranış qaydaları" və bu qaydalara əməl edilməsinin dövlət qulluğunda əhəmiyyəti, dövlət qulluqçularının qarşılaşa biləcəkləri etik dilemmalar haqqında məlumat və etik davranış qaydalarına əməl olunmasına dair tövsiyələr verilmişdir.

Bununla yanaşı, hesabat ili ərzində dövlət qulluqçularının xidməti davranış qaydaları və prinsipləri, dövlət qulluqçularının etik davranış qaydaları haqqında yaddaş kitabçası kimi metodiki vəsaitlər yenilənmiş və yenidən çap edilərək, Agentliyin aparatında çalışan işçilərin istifadəsinə verilmişdir.

Agentllik tərəfindən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təlimin keçirilməsi barədə müraciəti əsasında 2022-ci il 30 dekabr tarixində isə "Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri" adlı təlim keçirilmişdir. Təlimdə korrupsiya anlayışı, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, korrupsiya hüquqpozmalarının növləri, korrupsiya hüquqpozmalarına görə məsuliyyət, korrupsiyaya qarşı mübarizədə beynəlxalq təcrübə, korrupsiyaya qarşı mübarizə metodları və vasitələri, Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizədə əldə edilmiş nailiyyətlər, eləcə də dövlət qulluqçularının etik davranış qaydaları, etik davranış qaydalarının əhəmiyyəti, korrupsiya ilə mübarizə və etik davranış qaydalarının tətbiqi məsələləri barədə Dövlət İmtahan Mərkəzinin əməkdaşı tərəfindən təqdimat edilmiş və korrupsiyaya qarşı mübarizə və dövlət qulluğunda etik davranış qaydaları mövzusunda təlim iştirakçılarının sualları cavablandırılmışdır.

Hesabat ili ərzində Agentliyin dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarinin pozulması halları qeydə alınmamış, intizam tənbehi tədbirləri tətbiq edilməmişdir.